Ac ayı, oynamaz oğul.
Ac doğuz darıdan çıkmaz.
Ac əlinə düşəni yiyər; tox ağzına gələni diyər.
Ac eşiyə, lüt dışarı qaçar.
Ac eşiyə; lüt içəri qaçar.
Ac əsnər; aşıq gərinər.
Ac gəzməkdənsə; tok ölmək yaxcıdır(yeğdir).
Ac göz (gözü ac) yiyər, özüdə doysa, gözü doymaz.
Ac itin götün; tox it yalar.
Ac nə edməz, tox nə deməz.
Ac oldun çobana qoşul; yorudun karvana.
Ac qudurğan olar; tox oynağan.
Ac qurdlar, ağız ağıza yatarlar.
Ac, acınan yatar; dilənçi doğar.
Ac, qılıncı çapar.
Aca qazan asma; üşüyənə odun yaxma, o yiyər sıçar; bu qızar vurar.
Aca yaxınlaşma, toxu dindirmə, biri yiyər, biri sıçar.
Açarın gücü, qıfılı basar.
Acgöz, yalançı toruna düşər.
Acı işlətmə; toxu dəprətmə.
Acıdı, utma; şirindi, atma !
Acığan yatmış; acıyan yok.
Açılan solar; ağlayan gülər.
Acın evində, nə od olar nə də ocaq.
Acın imanı olmaz; toxun amanı.
Acın imanı olmaz; toxun gumanı.
Acından gün orta durur; buğların yağ ilə burur.
Acındırsan arsız, acıqdırsan hırsız(oğru) olur.
Acıqlı başda; ağıl olmaz.
Aclıq nə etdirməz, toxluq nə dedirtməz.
Aclıq, adama oyun öyrədər.
Aclıq; adama oyun öyrədər.
Ad var adamı bəzir; adamda var adı bəzir.
Adam axtayırsız, yox sizi.
Adam olmaq asta- asta; heyvan olmaq bir anda.
Adam otaran çox olar.

**Adam var 'ər' dəyişir; adamda var 'əl' dəyişir.**
**Adamdı adam; olmasa puluda, heyvandı heyvan; atlas olsa çuluda.**
**Adamı başdan tanı, ağacı yaşdan.**
**Adamı qeyrət; dəyirmanı su işlədər.**
**Adamı sözündə tut; heyvanı burnundan.**
**Adamın üzünə yok, sözünə bax.**
**Adamın vayı\ mollanın payı.**
**"Adəm" bir dənəyə satmış səggiz qat uçmağı(cənnəti) \ billah nəyimiş cənnətin canım səmənisi gör.**
**Adət qanun deyil; qanun kimi zorludur.**
**Adı başqa; dadı başqa.**
**Adı yava olur qurdun hamıdan, baş kəsən tülkülər var.**
**Adın nədir ? Dərviş; pulilə olur hər iş; pulun var giriş; pulun yok sürüş.**
**Adın nökər; durma bekar.**
**Adını eşit, görmə üzünü.**
**Ağ dediyin alqışdır\ qarada dedin qarqışdır.**
**Ağ saqqal sözün, axıra saxlar.**
**Ağa toxdur; nökərə bir çörək yoxdur.**
**Ağac kəsildi düşdü yerə; dost oldu baltaynan ərə.**
**Ağac tutan ağac vurandan artıq.**
**Ağac tutan ağac vurandan artıqdı.**
**Ağac, kökündən su içər.**
**Ağacı ortasından tutan, iki başdan vurar.**
**Ağacı qut yiyər\ insanı dəd.**
**Ağacın barı, iyidin yarı.**
**Ağacın kökü yerdədir, adamın gözü yerdədir.**
**Ağacın qurdu, öz dibindədir.**
**Ağalar sözə baxmır, qağalar söz başarmır.**
**Ağaran baş, ağlayan göz, gizlənilməz.**
**Ağaşdan budaxdan, biridə gəldi bucaxdan.**
**Ağası qul olanın; qulu quduran olur.**
**Ağıdan sağuq\ qəhbədən bağuq gəlməz.**
**Ağıl ağıldan üstün, söz sözdən ötgün olur.**
**Ağıl olur yaradan, sınır olur ondan ayıran.**
**Ağıl üçün yol birdir.**

Ağıl ulusdan çıxar; dərman kol-kos dan çıxar.
Ağıla paxıllıq olmaz.
Ağıldan artıq, var olmaz, ağıldan yaxın dost olmaz.
Ağıldan yavan, cibdən yağlı.
Ağılı evdə qoyub gedərik; axmağın. Qulluğuna yetərik.
Ağılı olan ərinməz; gücü olan sürünməz.
Ağılı qısanın; dili uzun.
Ağıllı "bizi" tapınca; dəli bacdan düşər.
Ağıllı işinə baxar; dəli dişinə.
Ağıllı olub dərd çəkincə; dəli ol, dərdivi çəksinlər.
Ağıllı öyrənər\ axmax öyrədər.
Ağıllıynan daş daşı\ axmaqıla yemə aşı.
Ağılsız başın, ya gözlüsü, ya koru(nə dəyişər).
Ağını çəkdə, balını çək.
Ağır basar, yeyni qalxar.
Ağır daş, batman döyər.
Ağır daşı yel qoparmaz, sel aparmaz.
Ağır gedən yol alar, yeyin gedən yolda qalar.
Ağır qazan, gec qaynar.
Ağırlık qızıl qala\ yüngüllük başa bəla.
Ağız bəzəyi sözdür\ üz bəzəyi, gözdür.
Ağız yağlanar, mala baxsan, könül dincələr, pul qazansan.
Ağız yandıran aşı; qaşıq tanıyar.
Ağızdan çıkan söz\ yanılmaz.
Ağlar gözdən, saxta sözdən; özünü gözlə.
Ağlaya - ağlaya arx qazsan; gülə - gülə su içərsən.
Ağlın ilə gör\ ürəklə eşit.
Ağlıva bir ağıl qat\ düşmanı gözdən qoyma.
Ağlıva gəlməyənin, önündən keçmə.
Ağrısız baş; məzarda olur.
Ağzı açığın malını\ gözü açık yiyər.
Ağzı yağlanan; dili bağlanan.
Ağzın aç\ "dişi" olsa qaç.
Ağzın dolu qan olsada; düşman yanında tüpürmə.
Al geyən, alınır oğul.
Al utanma\ ver qorxma.
Alçağı ayaxdan yıx; böyügü başdan.

**Alçak xalqın ağısı böyük olur.**
**Alçaq yerdə yatma; sel alar, uca yerdə yatma; yel alar.**
**Alcıya altı azdı; vericiyə beşdə çok.**
**Alıb vermək; görüş qaydası, gedib gəlmək; elçi qaydası.**
**Alimin elmindən yalançının dilindən yapışarlar.**
**Alimin sözündən de\ iyidin özündən.**
**Alında yazılmış, əl ilə pozulmamış.**
**Allah bilir, qul sezir(görür).**
**Allah ona qıymasın, tanrısı var saxlasın.**
**Allah səni iki qaşıqlı, min külüklü eləsin.**
**Alma dalda durunca, hər kərkəs daşını atar.**
**Alma, dibindən uzağa düşməz.**
**Alma; könül sevəni, algilən el sevəni.**
**Alqaçan su, dənizə çatmamış(çox oyan buyana qaçan su gor ba gor olar)**
**Altın başlı qadından; paxır başlı ərkək yey.**
**Anadan doğmaq; ölmək üçündür.**
**Anam elə çox bilirki, kündəni xırda götürür; atam elə çox bilirki, ikisin birdən götürür.**
**Ananın aşı\ təndirin başı.**
**Anbar sıçanı, ac qalmaz.**
**Anıya yaxın, qızdan qox\  meşiyə yaxın, qurddan qox.**
**Anlağlıya sivri sinək saz gəlir, anlağsıza; zırna - dövül az gəlir.**
**Anlamazla yeyib - içiplər; danışmayıblar.**
**Anqıran eşşək; öz tayın tapar.**
**Arada yeyir; qırağda gəzir.**
**Aranın dağı var olsun\  qarlıda olar, qarsızda\ iyidin başı sağ olsun\ varlıda olar, varsızda.**
**Ardınca qoşun qoşun uşaqlar\ əhvalına kim gülər kim ağlar.**
**Arıdan arı, gündən duru.**
**Arığ ata, qamçıda ağır gəlir.**
**Arının ağına(zəhərinə, ağrısına) dözüb, balını süz.**
**Arıq ata, qamçı düşman, yırtıq dama, damcı düşman.**
**Arpa pişər; işiniz düşər.**
**Arpa yeyən, ipək geyən.**
**Artıq aş; qabında dursun, artıq söz; içində dursun.**

**Artıq mal, göz çıxarmaz.**
**Artıq tamah daş yarar; daş qayıdıb baş yarar.**
**Arva geddi paltar almağa; kişi gedir ona baxmağa.**
**Arvad bir şeydi : alanda peşman, almıyanda.**
**Arvad boşuna yalanlamasa; düz danışan çıxar.**
**Arvad həman uşaqdı yalnız bir az böyük.**
**Arvad ilə at; iyidin bəxtinə qalıb.**
**Arvad malı alçaq qapıdı; bir girəndə dəyər, bir çıkanda.**
**Arvad malı; sapı mandalı.**
**Arvad nədir : yersiz şikayətlənən; bilə bilə yalan deyən; görə görə ağlayan, gizlində gülən.**
**Arvad öz ixtiyarına olsa; çillə çağı keçi qırxar.**
**Arvad var qadan alar\ ocaqıva kömür qalar.**
**Arvadı sırdaş edən; dəllal aramaz.**
**Arvadın ağzın, kişinin qolun güd(saxla, gözəddə).**
**Arvadın koru\ ərin karı.**
**Arvadın mədarıda yok; hükmüdə yok.**
**Arvadınan at, kişinin bəxdinə bax.**
**Arxadan gələn düşman, üzə gəlincə dostlaşar.**
**Arxadan kəsər\ ətəyə yamar.**
**Arxadır yurdumuza; eşq olsun ordumuza.**
**Arxlar axar, çaylar olar.**
**Arzu varıydı bucağa, süründü düşdü qucağa.**
**Aş, hamıdan baş.**
**Asdarı üzündən baha.**
**Aşı pişirən yağdır, gəlinin üzü ağdır.**
**Aşığın sazın al, gəlinin nazın al.**
**Aşığın sözü qurtulanda, yaram yaram çağırar.**
**Asılmamış qazanda, ovlanmamış dovşandan şorba pişməz.**
**Aşın az-çoxun qazan bilməz, qab bilər. Yolun az-çoxun ər bilməz, at bilər.**
**Aşıq gələr sazilə, gəlin gələr nazilə.**
**Aşıq oldur ki tapa tanrısını\ yox o ki tapduğunu tanrı sana.**
**Aşırı qeyrət, axırı zillət.**
**Aşırıb doymayan; yalamaq ilə nə doyar.**
**Aşq ağladar, dərd söylədər.**
**Aşq girdi başa; ağıl çıkdı qaça.**

**Aşq öyrətəndi, qulak asın takılın(kakılın) ona.**
**Aşqa - aşqa; bir məndən başqa.**
**Aşqın gözü kor, qulağı kar(olur).**
**Astar bol olmayınca, üzə gəlməz.**
**At aylığın; dəvə illigin düşünür.**
**At bəslənirkən; qız istənirkən.**
**At görəndə axsar\ su görəndə susar.**
**At gücünü karvanda gör, mərd gücünü meydanda.**
**At ilə arvad; iyidin bəxdi.**
**At minənindi\ ev qonanındı\ don geyənindi.**
**At olmasa; yol olmaz, dil olmasa; el olmaz.**
**At ölümü\ itə bayram.**
**At qaça - qaça, quş uça - uça yetişər.**
**At qaça qaça, quş uça uça yetişir.**
**At qanlı, igid canlı gərək.**
**At qazığı gümüşdən, yol azığı yemişdən.**
**At səğirtişi(sürdü), ok atışı, qılıc çalışı.**
**At sürüsün axtarar, qartal yuvasın.**
**At sürüsün, qartal yuvasın güdər.**
**At sürüsün; qartal yuvasın güdər.**
**At yemdən, yer kübrədən öğünər.**
**At, çapa-çapa, quş, uça-uça.**
**At, ər altında, ər, qeyrət altında.**
**At; çapa - çapa, quş; uça – uça.**
**At; ər altında, ər; qeyrət altında.**
**Ata ana acı alma yesə, oğlu-qızın dişi qamışır.**
**Ata babasın tanımıyan xanlıq iddikasi elər.**
**Ata dos kimi bax; düşman kimi min.**
**Ata evində ügüy ana; ər evində qaynana.**
**Ata güc\ adama ağıl.**
**Ata könlü; balada, bala könlü; havada.**
**Ata min; haq danış. (həqqı; at üstə danış)**
**Ata mindi, atasını\ atdan endi, atını tanımadı. ( ata minər, atasın danır\ atdan enir, atın danır).**
**Ata mindin, özüvü unutma. Atdan düşdün, atıvı unutma.**
**Ata qabağdan; itə dal dan yanaş.**
**Ata yumaqlanar; oğul budaklanar.**

**Atadan altı olunca; anadan iki ol.**
**Atalar sözü bazarda satılmaz.**
**Atalar sözü qurana girməz; yanında gedər.**
**Atalar sözü, söz bəzəyi, saqqal qoysan, üz bəzəyi.**
**Atalar sözü; ağlın gözü.**
**Atalar sözü; söz bəzəyi, saqqal qoysan; üz bəzəyi.**
**Atalı söz; ağıla göz.**
**Atam ilə atanı deyincə; özüm ilə özünü de.**
**Atan balası olma; adam balası ol.**
**Atda qarın\ itdə burun.**
**Atdan düş; addan yok.**
**Atdan düşüb; yəhərdən düşmür.**
**Atdığın vurar; tutduğun qoparar.**
**Atı olmayan : arpa nə gəzər.**
**Atı; yoluyla tanı, eli; dili ilə.**
**Atılan ok daşdan qayıtmaz.**
**Atılan ok daşdan qayıtmaz, elçisiz el gurlayamaz.**
**Atılan ox daşa dəyər, elçi sözün xana deyər.**
**Atılan ox daşdan qayıtmaz; daş ilə qayıdar.**
**Atın gücü yerişi, mərdin ərliyi işi(sayılır, hesaba gəlir).**
**Atın sirrin gözündən\ mərdin sirrin sözündən.**
**Atına acıyan; yəhərin arxalar.**
**Atışsan, söz çıkar; tutuşsan göz çıkar.**
**Atla qadın tumarsız qalmaz.**
**Atlı yayak savaşa yaralandılar.**
**Atsan nişana dəyər oxun doğrusu; bir mənzilə yetməz yükün əyrisi.**
**Attan inib səcdəyə qoy başın.**
**Axan arx; axmadan durmaz.**
**Axan suya dayanma; hər deyənə inanma.**
**Axmağa yaxınlaşan; ağıllı olmalı, yamana yaxınlaşan; yaxşı olmalı.**
**Axmağın ağası olunca; ağıllının, nökəri ol.**
**Axmağın atı; noxdasıyla sürünür.**
**Axmaq baş, ayağa daş.**
**Axmaq başdan; ağıl çıkmaz, ağıl çıksada; mağıl çıxmaz.**
**Axmaq elçi; iki xalqı pozar.**

Axmaq susanda; ağıllı görünər.
Axmaxla aş işməkdən; ağıllıya daş daşı (ağıllıynan daş daşı).
Axşam döz, yarın göz(gör).
Axşam qon ertən(tezdən) köç.
Axşamın sırrın, dan bilir.
Axtar; axtaranıvı !
Axtaran tapar, yoğuran yapar.
Axtaranda tapılmaz, gərəkməzsə(boş yerdə) guruldar.
Ay doğuşundan; ər yerişindən bəllənir.
Ay görününcə; ulduza minnət qalmaz.
Ay ışığın aləmə salır, şəm ışığın dibinə
Ay ışığın, gündən alır.
Ay qəmin bir kərə; el qəmin min kərə düşün.
Ay var, ili gözlər; iş var günü gözləməz.
Ay, örtüklə qapanmaz.
Ayağı qıssa; dayağı uzun.
Ayağın yerdə süzür, xəyalın göydə üzür.
Ayağın yükü; başdandır.
Ayağını isti tut, başını sərin, yeməyinə fikir ver, düşünmə dərin.
Ayak yalın ; qanqal qalın.
Ayaq - ayaq nərdivənə çıxarlar.
Ayaq çiçilmək yok; böyümək güdər.
Ayaq qabı dar olunca; dünya başa dar gələr.
Ayaq-ayaq, nərdivənə çıxarlar.
Ayaqdaki bit; atdan düşürər.
Ayaqdan çıkan toz; ağıza girər.
Ayaqıva daş bağlakı, başıva dən gəlsin.
Ayaqla gələn qonağı; atınan yola salarlar.
Ayaz günü unutma, gön çarığı qurutma.
Aydan arı, gündən duri.
Ayı biləyinə; insan ürəyinə güvənir.
Ayı ilə meymun\ bir birinə uyğun.
Ayı kim görmüş : kor malla məmi.
Ayı vurulmadan; dərisi satılmaz.
Ayıdan qorxan, meşəyə girməz.
Ayın on beşi ışıq, on beşi qaranlıq(dı).

**Ayının acı oynamaz.**
**Aynaya baxaraq yox; adama baxraq düzəl.**
**Ayqır görməyən qısrak, qulunlamaz.**
**Ayran tapmaz aşına; soxmalar soxar başına.**
**Ayranı içən qurtuldu; çəlik yalayan tutuldu.**
**Ayranın iç; taxılın biç.**
**Ayrılarsan elindən\ quvat gedər belindən.**
**Az ağrı, hasat ölüm istəyim.**
**Az aşım; ağrımaz başım.**
**Az getdi, uz getdi; iynə yarım yol getdi; dərə, təpə, düz getdi.**
**Az verib gəzdirmə; çok verib azdırma.**
**Az yaşa, çok yaşa, sonda(bir gün) gəlir başa.**
**Az yaşa, çox yaşa; axır bir gün gələr başa.**
**Az yırğanan; ac qalar.**
**Az yiyərəm, həkim görmərəm; uz (düz) dolannam, hakim görmərəm.**
**Az yiyir küsür; çok yiyir qusur.**
**Az, çox yanına gedər. Ac, tox yanına gedər.**
**Az; çox yanına gedər. (ac; tox yanına gedər)**
**Aza dedilər : hara gedirsən\ dedi : çoxun yanına.**
**Azacıq aşım, ağrımaz başım.**
**Azarlı tələsər; armud, vaxda yetişər.**
**Azına inan, çoxun tanrı yetirər.**
**Azıqlı at; arımaz (yorulmaz).**
**Aziydi arıq-uruq\ biri gəldi boynu buruq\ o birsidə boynu yoluq.**
**Baə alısan, qışda al\ bağ satısan, yazda sat.**
**Bağ belə bostan belə, nə istisən ged elə**
**Bağban qocalur tikən uzanur.**
**Bala, balım(dı), balası, canım(dı).**
**Balaban çalanındı\ at minənin.**
**Balasız qadın; gəlincik, parasız igid; ərincik.**
**Balı, barmağı uzun yox, qisməti(buyruğu)olan yeyər.**
**Balın təkini ye, sütün üzünü.**
**Balıx balığı tutmasaydı; balıx dənizi tutardı.**
**Barmaq soksa, bal əkşir (turşar).bu söz pis niyyətli, qaramsər haqda söylənir).**

Baş açıqın qaçağı; börkçü tükanıdır.
Baş gedməyincə; ayaq gəlməz.
Baş gedsədə;  börk qalar.
Baş hara; ayağda ora.
Baş öyrətmək : atı yəhərə öyrətmək, aram etmək.
Baş sağ olsun; börk tapılar.
Baş sağlığı: əsənlik.
Baş sağlığı; dünya varlığı.
"Baş üsdə" demə, ayaq atda qoy; işimi gör.
Baş yazısın; əl yazısı pozamaz.
Baş yoldaşı yokdur, aş yoldaşı çoxdur.
Baş, başa gəlməyincə, iş, iş olmaz.
Baş, dililə asılar.
Baş.ına gəlməyənin, xoşuna gəlir.
Baş; dililə asılar.
Başa düşəni göz görər.
Başa gəlməz; iş olmaz, ova gəlməz; quş olmaz.
Başağay: həp varlığıynan.
Başar dos qazan, düşmən qapıdadır.
Başardığından eləmək : başara bildiğineləmək.
Başı dik igid; da'vaıya düşər.
Başı kal könlü kövrək.
Basıb keçən yollar : batıb ötən; geridə qalan.....
Başım pqədər qarışıqdıki arvavadı boşamağa cayım(çağım) yoxdu.
Başım unlu görünür\ adım qalır dəyirmançı.
Başıma gün düşdü; Başın günə düşsün.
Başın başı var; başında başı.
Başına gəlməyənin, xoşuna gəlir.
Baskısız taxtanı; yel alır, yel almazsa; sel alır.
Basmaqdan bir övüd alsan; basılmaqdan ikisin alırsan.
Başqa başın qılın görməkdənsə; öz başının poxun gör.
Başsız gələn mal batsın; vaxsız diyən(dinən) dil batsın.
Batman qılıncın əmisi qızıdı.
Bax bu qaşa bax bu közə\ ciyər kabab oldu közə.
Baxma qayasına, baxma daşına, yerisən; çıxarsan dağın başına.

**Bazarda şam bahalı; korun nəyinə.**
**Bel bükük gözü yaşlı.**
**Bəla; gəlirəm-gəldim deməz.**
**Bəlanın körüğü : yanqına körüklə gedən.**
**Bəlası balına dəyməz.**
**Bələdçisi qarğa olanın, ruzusu pox olar.**
**"Bə'li" diyən, bənd olar.**
**Bəlli düşman; gizlin do.**
**Beş barmağdan; birin də kəssən, ağrıyar.**
**Beş barmağın biri kəsilər; beşi ağrırar.**
**Beş barmaq, biləyə bağlı; biləkdə, ürəyə bağlı.**
**Beşin başı olunca; altının ayağı ol.**
**Bəy bəyə, çay çaya qovuşur.**
**Bəy, istəyin geyər, yoksul, tapdığın.**
**Bəy, tanışa-qohuma, al-ver, dostluğa baxmaz.**
**Bəy, toxluğundan acıyar, yoksul, aclığından(acıyar).**
**Bəy; bəyə, çay; çaya qovuşur.**
**Bəy; istəyin geyər, yoksul; tapdığın.**
**Bəy; tanışa - qohuma, al - ver; dostluğa baxmaz.**
**Bəy; toxluğundan acıyar, yoksul; aclığından.**
**Bəyçə bəyliyə, bəy tanrıya yetsənər.**
**Bəyçə olan bəyliyə yetsin, bəyligi olan tanrıya yetsin.**
**Bəyin atın al\ yoxsulun qızın.**
**Biçilmiş taxıl; oraq pasladar, qurtulmuş döyüş; igid xamladar.**
**Bildiyin bir doqquz, bilmədiyin doqsan doqquz.**
**Bildiyin sığsa çanağa; bilmədiyin sığmaz qazana.**
**Bilən söyləmir, söyləyən bilmir.**
**Biləyi zor; birini yıxar, bilimi olan; minini.**
**Bilim çox, ömür qısa, gərəgin olsa(bacaracağın varsa) daşa yaz.**
**Bilmədiyin işləyən poxa düşər(bükə: tələ).**
**Bilö tikanı ititməz.**
**Bir adam köprü salar; min adam keçər, bir adam quyu qazar; min adam suyun içər.**
**Bir afamın qazdığı quyu\ binlərin su ilə doyuyur.**
**Bir ağac kölgəsində; yüz qoyun yatar.**

Bir ağızdan çıkar(n), min dilə yayılar.
Bir almanın qurdu; bir anbar alma çürüdür.
Bir axırda(oğul), atda olur, eşşəkdə.
Bir başa; birdən artıq börk baş ağrıdar.
Bir çiçəklə yarmaz yaz.
Bir çıraq ışığına yüz adam oturur.
Bir çörək; doqquz ac, orda durma; ordan qaç.
Bir çörəyin; həm acıyam, həm toxu.
Bir əlində od olsa, bir əlində su olsun(oğul).
Bir görüş; bir kor biliş.
Bir il oğurluq edən; min il qazılıq edər.
Bir it bəğlənirdi, bir sümük verdim qul etdim\ ac qurd kimi yavuzuydu, bir qoyun kimi yavaş etdim.
Bir it hürməyi ilə bir kərvan geri dönməz.
Bir mıx; bir nalı, bir nal; bir atı, bir at; bir əri, bir ər; bir eli qutarar.
Bir olmadan; yoxdu millət, iş olmazsa; hər şeyim zillət.
Bir önəri(hünər, sənət) qovmasan, ömür ötər boş-bekar.
Bir qadının hiləsi; qırx eşşəyə yük olar.
Bir qarınc(kovun, çox) yaxşılığı, bir çimdik yamanlıq pozar.
Bir qıçı burda, bir qıçı gorda olanlan soruş.
Bir qırağı(qırov) üç qar yağışa dəyər.
Bir qızı övəndə belə deyərlər : uzun boylu, incə belli, səmiz ucalı, göyçək gözlü, şirin sözlü gülər. Üzlü, açık könüllü bir xanım.
Bir qorxaq; bir ordunu pozar.
Bir qotur keçi; sürünü qotur edər.
Bir sürüyə; bir qud yetər(bəsdi).
Biri gəzir, biri yazır.
Biri itdi biri bitdi.
Biri var; özü qadın, bir var; adı qadın.
Biri yeyər, biri baxar,  qiyamət onda qopar.
Birinin adı var; birinin dadı.
Birisi körpü salar, min biri keçər.
Biz ondan; yoğurt umarız, o, bizdən ayran.
Bizlər qaçanı qovmaz, qovandan qaçmaz.

Borc alma pis adamdan; dar gündə, pis yerdə istiyər sәndәn.
Borc gülə - gülə gedər; ağlaya - ağlaya gələr.
Borc verməklə, yol yeriməklə bitər.
Borc; verməklə, yol; yeriməklə bitər.
Boş çuval; ayaqda durmaz.
Boş kəllənin yükün; ayağlar çəkər.
Boş qazan, qaynamaz.
Boy çatmayan yer olar\  fikir çatmaz yer olmaz.
Boyaçı küpü deyil ki; basıb çıxarasan.
Boyu hündür, boynu kürtül, donu qalba, əli balta, gövdə salta.
Böyük dağa çıx; yekə yerlər gör.
Böyük dağa qar yağmadıqca\ çiçik dağa sıra gəlməz.
Böyük olsan yerkimi\ dərinolsan göl kimi ol.
Böyüklə böyü; başın göylərə dəysin, kiçiklə kiçil; başın yerə dəysin.
Boyun duruğu görüncə; öküz canlanır.
Boyun olun mən tanrıya.
Bu bir məqamdı ki – quş gəlir qanad tökür; qatır gılir, dırnaq tökür.
Bu dünya bir dəgirmandır; öğürtür bir gün bizidə.
Bu dünyada iki qaçılmaz olur : biri doğumdu; biri olüm, adam səlamın verə-verməyəsən; köçüp gedər sənə nəolur.
Bu eşq adama gör nələr uğratır(yetirir)\ yarır bağrın ürək doğratır.
Bu günlərin qızları; kəbin kəsən özləri.
Bu günün qarı; sabahın barı.
Bu il izidi\ gələn il, özüdü.
Bu qədər qusur; qazı qızında tapılır.
Buğda yanında otda sulanır.
Bulut ağlar; çimən gülər.
Burnun ucu göynəmək : kövrəkli şey yada düşmək, həsrətdə qalmaq, əl çatmaz şey hakda deyilir.
Burun, sasıq iydən ötür kəsilməz.
Burun-turun etmək : üz verməmək, qaş-qabax sallamaq Boylu-boslu.

Buynuz çık(ar)mak : bir şey üstün olmak.
Buynuzlu olmaqdansa, başqalarına buynuz qoymağı, daha pis bilirəb.
Buz üsdə bina salsan; günə gedər, dağ üstə bina salsan; yelə gedər.
Buz üstə bina tutmaz.
Buz üstə yaz, yazı yazar.
Buzdan keçməlisən\ aldın keç\ oyulmazdan keçəasən.
Buzdan su damlar.
Çağırğan yerdən qalma, çağrılmayan yerdə qalma.
Çağırğan yergə barmayıb ar etmə\ çağırmağan cergə barıb yeri dar etmə.
Çağrılan yerdə bit, çağrılmayan yerdən it.
Çağrılan yerə ar etmə, çağrılmayan yeri dar etmə.
Çağrılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.
Çağrılan yerə var, çağrılmayan yerdə nəyi var.
Çağrılmayan yerə; pişiklə it gedər.
Cahil dirilərin ölüsüdü.
Cahil özü ilə düşandır, başağası ilə necə dost olur.
Cahildə söz əylənməz; günbəzdə qoz.
Çalan çoxdu, oynayan yoxdu.
Calanan dolu qayıdmaz;
Çalış belə dos qazan\ düşman ocaq başında.
Çalış qızı ucuz al.
Çalışanın çörəyi dadlı, ərincəyin canı.
Çalışça atadır; yer anadır.
Çalışman ekiz olsa; bəyligin səkiz olar. (ikiyə çalışsan varın səkkiz olar.)
Çalışmaq atadır; yer anadır.
Çalışqanın biri iki olsa; ərincəyin ikisi bir olar.
Çamurdan çıxdıq; çamura batdıq.
Can çıxmayınca; xuy çıxmaz.
Can oldun, işə gəl\ soca oldun, aşa gəl.
Candan qonşu payı olmaz.
Canım - canım dedilər; varın - yoxun yedilər.
Çarıq - çürük etmək : safa çaxatmaq, seçip atmaq.
Çarıq tapan; dolağın tapar.

**Çaxmaq məndən\ qov səndən.**
**Çay bir olar, çeşmə min.**
**Çəlik(asa) odurki yerə taxılıb ağac ola.**
**Çeşmədən umman yaranar.**
**Cəviz ilə çınar bir yaşadı; min yaşadı.**
**Cib parasız ev dincsiz – ölüyü neynərəm, girir ağlaram çıxar ağlaram.**
**Cibimdə para var  - toyu neynərəm; girər oynaram, çıxar oynaram.**
**Çiçiklərə hörmət elə; böyüklərdən hörmət qazan.**
**Çiləğinə görə qapçağı : kovasına görə qapçağı.**
**Cinə papaq tikir; şeytana başmaq.**
**Çirkin bürünər, gözəl görünər.**
**Çoban  ərmağanı; şam saqqızı.**
**Çoban baxdığın, kəndli əkdiyin yeyər.**
**Çoban dayağı ilə; gəlin duvağı ilə.**
**Çobanı özündən olanın; qoyunu dişi doğar.**
**Çobanın könlü olsa; təkədən süd sağar.**
**Çok danışma, ağzın böyüyər.**
**Çok daşıyan eşşəyin palanı, yırtıq olar.**
**Çok əli işdə gör; az əli aşda gör.**
**Çok gurulduyan bulutlar, azda verir yağışlar.**
**Çok savaşan rüşvət verər.**
**Çölmək min gün sınmaz, bir gün sınar.**
**Çölməyi yapan; qulpun da taxar.**
**Çömlək duvağıynan, ərəkək sınarıynan.**
**Çörək ağacın əlində olsun; çörəyin ağac başında olmasın.**
**Çörək nə qədər şişədə, xəmirdən qaçağı yox(du).**
**Çörəksiz ol, ürəksiz olma.**
**Çörəyə quru diyir; ayrana duru deyir.**
**Çörəyi qurudur; ayranı duru.**
**Çörəyin ağacı var, ağacında çörəyi var.**
**Çörəyin var, işin işdir, çörəyin yoksa, özü bir işdir.**
**Çovanın qudusudu; dağı dağ üsdən keçər.**
**Çox arayandan; çok soran yeydir.**
**Çox danışıb iş görməməkdənsə, susup işləmək yaxşi.**
**Çox daşar; az dolar\ az daşsa; çox dolabilməz.**

**Çox el olar birdilli.**
**Çox eşidəndən; bir görən yaxşı.**
**Çox guruldayan bulutdan; yağış umma.**
**Çox küyənin gözü kor olur.**
**Çox olsa qoz, kovsuz olmazqəbri qazan bir olur basdıra min.**
**Çox yaş olma – sıxılarsan; çoxda quru olma qırılarsan.**
**Çubuq yaşla əyilir.**
**Çubux tutduğun yerdən yok; əyrilən yerdən qırılar.**
**Çüçük it olur; it qart olur.**
**Çünkü hər işgil(müşgül) ona asan durur.**
**Curaca, qıraca.**
**Çürük bağlavanın; kor alıcısı olar.**
**Çürük nərdivan; uca dam, çürük ip; dərin quyu.**
**Çürük ox atdı, yayı yasıldı.**
**Çürük taxta çüv tutmaz; dəlik tava, yağ tutmaz.**
**Çuvalın boşu, dik durmaz; ağlı olan, tək durmaz.**
**Dabbax sevdiyi dərini\ daşdan daşa vurar.**
**Dadanmış duza, gəlir bizə.**
**Dadlı söz; can arzısı, acı söz; baş ağrısı.**
**Dadlı varmı sonu olmaya acı\ varmı xoşluk yadlı olmaya ucu.**
**Dadmaq yaşamdandı, doymaq ölümdən.**
**Dağ uçmasa; dərə dolmaz.**
**Dağdan arxası olanın; daşdan ürəyi olar.**
**Dağın kürki(gözəlliyi) daşınan; adamın kürki başınan.**
**Dağlarda dağ ətri var; bağlarda bağ ətri var, mən ölsəm sinəmi yumayın; sinəmdə yar ətri var.**
**Dağlardan böyük; dağlar.**
**Dağlardan ucadır mənim başım\ çox qocamanam bilinməz yaşım.**
**Dağlı yer bulaksız; sulu yer qamışsız olmaz.**
**Dalda basılan; üzdə doğar.**
**Danışdın dilivə; yeməkdə əlivə yiyə ( yiyələn).**
**Danlamayın hər ki aşqa uya\ deyiplər sevgi kilimi suya bırakır.**
**Dar börk başı sıxar, pis arvad ürəyi.**
**Darayna bak bezini al daray(:incə ipək).**
**Dartılmasa; bərkinməz.**

**Daş atan bəlli, baş tutan bəlli; burda sən nəçisən.**
**Daş dağa güvənər\ iyid ürəyə.**
**Daş, daşa söykənir duvar olur.**
**Daşqa ilə dovşan tutulmaz.**
**Daşqasını at çəkər, kölgəsini it çəkər.**
**Daşqınlığın sonu; şaşqınlıqdır.**
**Daz, dazı görsə; başı qaşınar.**
**Dədəm mənə kor dedi\ gələn gedənə vur.**
**Dedilər : keçəl, başıvı yudun ? Dedi : yudumda, daradımda.**
**Dedilər yalançıdı, min ayb bil\ oğrudur qaçakçıdır key saklaqıl.**
**Dedilərsə baş gətir; sən börk apar.**
**Dəgirmana girdi köpək; kəpək yedi, köpdi köpək, yoksa kötək yedi köpək.**
**Dəli "bizdən" gen durmaz\ "biz" tapmasa, diş durmaz.**
**Dəliyə öz bəlasi bəsdir.**
**Dəliyə yel ver, əlinə bel, dünyanı belləsin töksün ora.**
**Dəmir islanmaz, dəli uslanmaz(ağıllanmaz).**
**Dəmiri dəmirlə yumuşat.**
**Dəmiri tazında döy.**
**Dəniz qaxmışisə, artıq gəlir o, və gər inmişisə, əksik gəlir o.**
**Dənizi keçip; çayda boğuldu.**
**Dərd ağladar, eşq söylədər.**
**Dəriyə yenib birin vurmakdan\ dəyənək yeyib təpəyə çık.**
**Dərsən biçərsən.**
**Dərya yanında quyu qazma.**
**Dərzi öz söküyün tikənməz.**
**Dərzi "tikənə" yok; biçənə demişlər.**
**Deşik harda; sıçan orda.**
**Dəvə, qara yerin, qayığıdır.**
**Dəvəni darğası; yatırdası.**
**Dəvəni dəpətsə yel.**
**Dəvəni görən tanır; ağını udan.**
**Dəvəni, darğası yatırdası.**
**Dəvənin böyügü; köprüdə dayaqdı.**
**Dəvəyə minib yara pusma.**
**Deyəndən bir umarlar; dinləyəndən iki.**

**Deyilən sirri biri diyər, mini basdırar, on mini açar.**
**Deyirki dəliyəm dələcəm.**
**Dəyirman iki daşlı, məhəbbət iki başlı.**
**Dəyirman öz səsin eşitməz.**
**Dəyirmanda doğan sıçan; gurultudan qorxmaz.**
**Dil olmasa, yaşam bom boş, din olmasa yaşam bom boş.**
**Dildən gələn, əldən gəlsə, hər kimsə padişah olar.**
**Dilənçiyə üz vermə, xəbərçiyə söz vermə.**
**Dili doğru; yolu doğru.**
**Dili kəsilmiş haqqı kəsilmiş.**
**Dilim var; elim var.**
**Dilimi tüh görür; dilimi tükə bağlır.**
**Dilində qənd o menqu suyu gizli.**
**Dilini gör; elini gör.**
**Dilli elin; özüdə var üzüdə var.**
**Dilsiz elin daşı çok; ürək kövrək dağı çox, öz dilini bilməsə; doğma elin yadı çox.**
**Dilsiz elin sözü yox.**
**Disiz millət\ çəkər zillət.**
**Diyən bilmir; bilən demir.**
**Diz köçüp yaşayandan; dik durub ölən yaxşı.**
**Dızırıq quluya dən ver gəl : yerin gəl.**
**Dodula bazar; dosluğu pozar.**
**Doğmadıq oğuldansa, doğan yad yaxşı.**
**Doğru danışanın; papağı yırtıq olar.**
**Dolmuş yaraq birin qorxudar; dolmamış yaraq ikisin.**
**Dolu küpün səsi çıkmaz.**
**Dolunun ağzı ürəyindədir; dəlinin ürəyi ağzında.**
**Dolur badələr o boyda ki dolmalıdır\ içirsən o boyda ki dolmalısan.**
**Doluya qoydum; almadı, boşa qoydum; doymadı.**
**Dombagöz : qorkak.**
**Doru çokla, salamlaş; dotu azla, sırlaş.**
**Dosdun dosluğu gün (qın: korluq) düşəndə bəllənir.**
**Dosduva at vermə, verdinsə(əgər), "yavaş ged" demə(at verməyin nə yavaş ged deməyin nə?).**
**Dost çoxalsa, düşman ayağ altında(qalır).**

Dost ekiz; düşman səkkiz.
Dost sözün deyər; ağladar, düşman gülər; söz diyər.
Dosta(dosluğa) tapdan(əzil, alçal), düşmana gülünc olma.
Dostun gözündəsə; könlündə ol.
Dostunla dost olduğuna öyün(sevin), düşmanınla dost olandan çəkin (sağın).
Dövlətlinin xoruzuda banlar! - yox belə : yumutlarda.
Dövlətlinin xoruzuda həmi banlar həmi yumurtar!
Dövlətlinin xoruzuda yumutlar.
Dovşan kölgəsindən qorxar.
Dovşan nə qədər arıq olsada; dərisindən çarıq olar.
Dovşanı qamış öldürər; əri namus.
Dovşanın boyunu gördə, ətindən vaz geç, qorxanın özünü gördə, faydasından keç.
Dovşanın iti qaçdığın, çok yatdığından gör.
Dovşanın tayada balaladığı, tazının liskiliyindəndi (təmbəlliyindəndi).
Dovşanın yatmasın gördün; qaçmasından de.
Dumanda, süpürgəlik, sayılmaz.
Dumanlı dağlar; yağışsız qalmaz.
Dünya bir holadır; gələn keçir, qonan köçür
Dünya dadımlığımış; doyumluq yox.
Dünyada dinclik sevən; başa gələni, xoş görər.
Dünyada ən çətin şey sözdür, anlamağıda çətin, anlatmağıda(çətin).
Duran durmuş, gedəni tut.
Dürbününən baxdılar\ qəbüstanı yıxdılar\ ölülər darıxırdı\ gordan gora soxdular.gülüstan bağı düzələn zaman.
Düşman ağzın qapayanmasan(bağlayanmasan), öz əlin uzun olsun.
Düşman dağın dalında(dır), qurd meşə yolunda(dır).
Düşman oldu yayını yasmaq gərək\ iki dillinün dilin kəsmək gərək.
Düşmana sırr; dosta yalan söyləmə.
Düşmanın dalında olunca; içində ol.
Düşmanın ingəlsin.
Düşmanın yolları kəsilmiş olsun, gücləri kamanları yasılmış.

Düşmanın; ərkək - dişisi yoxdur.
Düşmənin bir toxum dibindən qır;\\\\\ dosluqda yox toxum əkməlisən(dosluğa toxum toxum??).
Düşündəki doğru olmaz\ gördüyün yuxu, olmaz.
Düşündürəndə baş; oynadanda baş.
Düyün əl ilə; xırman yel ilə.
Duz - çörək deyiplər; düz çörək yeyiblər.
Düz əyrini kəsər.
Düz gözünən gir; əyri gözdən çık.
Düz işgələr; qırılmaz.
Duza gedənin; yükü ağır olar.
Duz-çörək deyiplər, düz çörək yeyiblər.
Düzlüyün canı, ruhu, özü insafdır.
Əcəl gəlirkən cana; baş ağrısı bahana.
Edən qurtuldu; diyən yok.
Əfəndilərdə çoktur böylə işlər\ kimi açuq boyur kim gizli işlər.
Əgər saklarisəm sonra duyulur\ ocağıma mənim sular qoyular(tökülür).
Əkən biçər; qonan köçər.
Əkən dəyər; qazan düşər.
Əkin əksən; yerə bak, eli sevsən; elə bax.
Əkinçi yerdən, balıqçı göldən umar.
El ağzına baxan; qadının tez boşar.
El ağzına "ələk" tutmazlar.
El alır qız; "quda" qazanır,  mən aldım qız; "qada" qazandım.
El çalışar; yer sevinər, yer barlanar; el sevinər.
El çarasız (olmaz), mərd yarasız olmaz.
El çarasız, mərd yarasız olmaz.
Əl çatmayan aş; ya qarın ağrıdar, ya baş.
El dediyin kimindir, dil dediyin elindi.
Əl əl ilə; dəgirman yel ilə.
Əl əlin örtüyüdü.
El ərə sığılar; ərdə elə.
El eybin sənə deyən; sənin eybin elə deyər.
El gözünü dil açar.
El hakimin əlinə; hakim elin cibinə baxar.

**Əl iş görər; göz qorxar.**
**El qapısı gec açılar,(həmdə) güc açılar.**
**El qazanilə; aş qaynamaz.**
**El qonmadan, it susmaz.**
**El qulağı su tutmaz.**
**El yaxşı biz yaman; el buğda biz saman.**
**El, hakimin əlinə, hakim elin cibinə baxar.**
**Eldən gəlsə məlamət; qalanmazsan səlamət.**
**Eldən qalan dil olsun, seldən qalan iz olsun. Oddan qalan kül olsun.**
**Elə günə düşüp ki burnun ucu tityəyir.**
**Əli bağlı olanı yetən döyər; yetməyən söyər.**
**Əli əyrinin; dili düz olmaz.**
**Əlifin hicası var, gündüzün gecəsi var.**
**Elin ağzı torba deyil; büzəsən.**
**Əlinlə xəmir ovar; gözü ilə dənə qovar.**
**Əlirik qatırıq kəpəyinə.**
**Əlivi vuranda dizivə; onda gələrsən özüvə.**
**Əlli ilin eşşəginə; dəyirman yolu göstərir.**
**Ən yaxşı dos odur ki; qarşı durmaya.**
**Əngəl ilə tikan, biri yardan, biri güldən(olur).**
**Ər - arvadın savaşı; yaz gününün yağışı.**
**Ər ağacı gül ağacı; taqsırım var vur ağacı.**
**Ər altında at olur, qeyrət altında ər olur.**
**Ər arvad arası ipəkdir; araya girən köpəkdir**
**Ər çöldə olsun; çörəyi evdə.**
**Ər doğan yerin isdər; it doyan yerin.**
**Ər doğan yerini küysər, it doyan yerini.**
**Ər əri yoldaşlıqda, ev evi qonşuluqda tanır.**
**Ər od olar; arvad su  - sən ölmüyəsən.**
**Ər yaşar, ərki gedər; qadın yaşar görki gedər.**
**Ər, doğan yerin istər, it doyan yerin.**
**Ər; axar çaydır, arvad isə ona ovsar.**
**Ər; əri yoldaşlıqda, ev; evi qonşuluqda tanır.**
**Ər-arvadın savaşı, yaz gününün yağışı.**
**Ərə getmək asandır; ər donu tikmək çətin.**

Ərə qadaş gərək düşman dağıda\ ki demişlər yavuz qardaş yağıda.
Ərə ver atın, elə ver aşın.
Ergən(özgə) gözilə qız alma, gecə gözilə bez alma.
Ərincəyin işi bitməz; yaz gəlsədə qışı bitməz.
Ərinə görə, bağla başını; qabına görə qaynad aşıvı.
Ərinməsən, usta olarsan.
Ərkək quş havanı, dişi quş yuvanı güdər.
Ərkəyə ürək gərək; qadına dirək.
Ərsiz arvad, güvənsiz at.
Ərsiz qadın, yüyənsiz at.
Eşə eşə topraq ürər(gəlişər), söyləyə söyləyə söz.
Eşək ata deyirmiş: yokuşda sən mənə küy, enişdə mən sənə küyəm.
Eşəkin quruğu kimi nə uzar, nə qısanar.
Əsənliklə keçirdi tümlə yolu.
Əsgi düşman, eli pozar, el olmaz.
Əsgi ilin hesabi; yeni ilin sabağı ( dərsi).
Əsgi, yamaq götüməz.
Əsil ilə daşı; daş, bəd əsl ilə yemə aş.
Əsil itməz, yağ iylənməz.
Əski düşşman dost olmaz; əsgi pambıx bez olmaz.
Əskinməyən torba, tükənməyən mal olmaz.
Eşq ağladır; dəd söylədir.
Eşqə düşmə ki can oğurldır\ söz vermədən düşün(sakın) ki, iman oğurladır.
Eşqin gözü kor olur, qulağı kar.
Eşqsiz can gövdəsi, cansız durur.
Eşşəgivi bağla; sonra allaha ısmarla.
Eşşək adam öz başını düşünər; yaxcı adam yoldaşını.
Eşşək atla yarışmış; quyruq, qulax qarışmış.
Eşşək başı ağırlıq (hörmət) götürməz.
Eşşək kimi, gözü otdadır.
Eşşək nə eşşək; tükü məxmər; incə kəmər; üzü qəmər; yerişi at;üstündə yat;belinə min; mənzilə çat.
Eşşək qaçdı; ip uzandı.
Eşşək üstündə yüküm yok, dağdan uçsa qorxum yok.

**Eşşək yügürər, at küyər.**
**Eşşəkliyi bəs deyir; dəvəni yədəkliyir.**
**Eşşəyə görə çulu.**
**Eşşəyə palan yük deyil.**
**Eşşəyi minmək gərək, ata yetincə görək.**
**Eşşəyin hesabi başqa; eşşəkçinin ki başqa.**
**Eşşəyin quyruğu kimi nə uzar, nə qısar(qısanar).**
**Eşşəyin yügürəni; atın ağsaqı kar verməz.**
**Ət olan yerdən; it getməz.**
**Ət qanlı; iyid canlı olmalı.**
**Əti acı adamı axtarmazlar; ras gələr.**
**Əti ətdən kəsərlər, uman yerdən küsərlər.**
**Ətin yemiş; öümüyünə dayanmış.**
**Ətin yeyir; sümüyünə göz tikir.**
**Ev almadan, qonşunu tap(tanı).**
**Ev kimindir ? - oturanın; söz kimindir ? - götürənin.**
**Ev yiyəs(issi) yuxuda oğru güvənir.**
**Evi quran balta; dışarda qalar.**
**Eybi yok deyin; eybsizləşin.**
**Əyri ağaca yayım demə, hər görənə dayım demə.**
**Əyri basılar; doğrusu çıxar.**
**Əyri duvar tez yıxılar.**
**Əyridə tox, doğruda ac görmədim.**
**Əzəli düşman; el olmaz; ətəgi kəssən dar olmaz.**
**Əziziyəm dil açar; bərk torpağı bel açar, toprak sənin dil başqa; körpə dilin kim açar.**
**Əziziyəm dilim dilim; kəs qarpızı dilim dilim; əlçəkmərəm dilim dən; kəssən dilim, dilim-dilim.**
**Əzrayil vurar pəncə; bakmaz qocaya, gəncə.**
**Fala inanma; suya dayanma.**
**Faydalı yerə qaça - qaç get, zərərli yerdən qopa - qopa qaç.**
**Fələkin belə işləri çok; qaplanı ac gəzdirir, tülkünü tox.**
**Fələkin işinə bax; birinə qismət, birinə nisbət verir.**
**Fikir dili basar; dildə gücü.**
**Fürsət yelə bənzər; onu keçərkən tutmalı.**
**Ğarğış edən arğanar.**
**Ğayrətlinin ürəgi qaynar, ğayrətsizin ürrəgi oynar.**

Gecə gəbədir; gün doğmadan; nələr doğar.
Gecə odu, gündüz düdü (tüstünü) gizlədir.
Gecə odu, gündüz düdü gizlətməyi öyrən.
Gecəni güdmək bayquşkimi; günüzü güdmək, qartal kimi.
Ged tabağım gəl tabağım; gəlməsən dövül tabağım.
Gedək bu dari fənadən yeyin yeyin\ içək bu sərin sulardan sehun sehin.qeyt.
Gedər bağlar qorası; qalar üzün qarası.
Gediciyə yol yaxci, qlucıya ev yaxci.
Gələnə xoşluk; gedənə uğur dilə.
Gəlin var qızdan, toyuq var qazdan başdır.
Gəlin var; külü aş yapar, gəlin var; unu daş yapar.
Gəlini evdə sına; dağa oduna yolla.
Gəlini evdə sınıyıb, dağa oduna yollamışlar.
Gəmiçi minər gəmiyə.
Gəminin için qaçqınçı olsa, yeriməz.
Gəmisin batıran; başmak axtarmaz.
Gənc ömrün bağışlar, qarı ömrün qarışlar.
Gəncliyə güvənmə igitligə dayanma.
Gərçək əzilər; üzülməz.
Gətirəndə; el gətirir, yel gətirir, sel gətirir , aparanda; el aparanda, sel aparır, yel aparır.
Gəvəzənin işi qalar, astanın işi qalmaz.
Gic; nə doydum bilər, nə yoruldum.
Gizliu basılar; açqıra doğar.
Göcə mıncıq kimdədir; mənim gözüm ondadır.
Gölüm (gələm) deyə köpürürsən; içində bir balık yok.
Gön çıxandan; can çıxana can.
Gopuzların güpültüsü(küpültü, küpürtü, gümbürtü: gümültü, patırtısı), oxların. Qıçıltısı(qıjıltısı, fışıltısı) qılıcların şaqqıltısı.
"Gördüm" dedin tutuldun; "görmədim" dedin qurtuldun.
Gördün yarın yar deyir, tərkin qılmaq ar deyil.
Gördüyün kimi inanma, inandığın kimi gör.
Gördüyün qoyub; sandığın tutma.
Görən gördüyündən diyər, görgüsüz ağzına gələni.
Görən gözündən asılı; görməyən ağzından asılı.

**Görən günü unutma.**
**Görmədiyin yükün, altına girmə.**
**Görməmiş, gördüyün qurusun.**
**Görüm səni batlağa düşəsən dərd əlindən.**
**Götürəmmədiyin çomaq; başada dəyər, qıçada.**
**Göyə umub atma oxi;**
**Göz görə görə, əl görə görə pişər.**
**Göz görməsə könül qatlanır.**
**Göz görməyincə; könül qatlanır.**
**Göz quyruğiyla : göz kıyısilə : göz ucuyla.**
**Göz tərazı; ağıl miyzan.**
**Göz yumulunca; qiyməti bilinməz.**
**Gözəl var gözünən öldürər; gözəl var sözünən öldürər.**
**Gözəldə hamının gözü var; çirkinə kimin sözü var.**
**Gözələ kəpən yaraşır; çirkinə ətləs neynəsin.**
**Gözəllərin talehi; çirkin olur.**
**Gözəllik gözünəndi; axlaq sözünəndi.**
**Gözləməkdən iki gözün dörd olsun..**
**Gözlərə tikən; meyvəli ağac.**
**Gözlüyə gizli yoxdur.**
**Gözü toxa ağzındakı yetər\ ac gözə dünya yetməz.**
**Gözüm səğrər, qulax çınlar, könül inlər\ ki candan sevgili dilbər gəlir dirlər gəlir dirlər.**
**Gözünün biri alma dəyər; o biri səbədə salkr.**
**Gücü olan günlüyün tapar; bilgisi olan illigin.**
**Gül açmasa, bar gəlməz; biçilsə don, dar gəlməz.**
**Gül dalından odun olmaz; bəsləmədən qadın olmaz.**
**Gül qədrini kor bilməz.**
**Gül tikansız; çöl ilansız olmaz.**
**Güllüyün gülü beş gün.**
**Gülmə qonşuya; gələr başıva.**
**Güman, imandan ayırar (elər).**
**Gün çıkandan canı çıkana can.**
**GÜN GNDƏN ŞİŞİK gəlir saat saatdan.**
**Günəş palçıkla sıvanmaz.**
**Günəşə qarşı işəmək : sayqısızlıq sayqılara.**
**Günü ilə; gün yokdur.**

Günüm yoxdur; günüm var.
Gurlayaraq gələn düşmandan, kötüdür(pisdi, yamandı) gülə-gülə gələn düşman.
Gurulda, amma yağma.
Güzgüyə baxan; özgəsin görməz.
Ha uzaq ola yol yaxşı; ha yaman ola, el yaxşı.
Haça mıx yerə girməz.
Hakimsiz – həkimsiz ölkədə durma !
Hamamdan çıkanın əri olasan; səfərdən gələnin arzadı olasan.
Hamı yaşlar qurur, yaşıl saralır\ saralır bağlar, qaralır dağlar.
Hamınız bir uğurdan çalışın.
Hamıya gələr gözü qara qələm qaş; bizə gələr sallaq burun çeçəl baş.
Hamıynan olan, heç kimlə olmaz, bəsləsəndə qəhbədən el olmaz.
Hammı öz yükün ağır bilər.
Hammı sevdiyinə "can" diyər.
Hançı eldən yok; hançı dildən diyəllər !
Hançı gün var ki akşam olmasın.
Haqqa çatan kılavuz\ doğru yolda olsun uz.
Hara mıx çalıram; papağın asır.
Hardan gəlirsən – bülbül qalasından; niyə başın qanlıdır – dilim bəlasından.
Hayatın yazılmamış zanğı yazılmışın basar.
Hazır oldu pişişlər; gəldi gözdən düşmüşlər.
Hazır yeməyə; dağlar dayanmaz.
Hazıra şah demək gərək.
Heç bir işi quramaz; xeyrə şərrə yaramaz.
Heçi heçə versən; genə heç çıxar.
Həm xayasız həm hayasız.
Hər bəfasız yar olmaz; ətəyi kəssən dar olmaz.
Hər bildiyini; dəyirman döndüyün düşünür.
Hər kəs bildiyini; dəgirman döydüyünü.
Hər ki aşqa uyar\ kilimin suya bırakar.
Hər kim öz yükünü ağır görür.
Hər kimi oğru san\ ta malın oğrudan sakın salasan(qalsın).

Hər kişi kəndi çörəyinə köz eşər Güvənci olsun kılavuz\ ilahi yolunda azmayavuz.
Hər millətin çıkarı dövlətinə gərədi.
Hər nə edər özünə edər; külü də gözünə edər.
Hər nə yedin dadındır; hər nə verdin adındır; hərnə qaldı yadındı.
Hər şey təmiz seçmə yumurtadan başlayır.
Hər şey yumurtadan başlayır.
Hər yarağı düzəlmişdi; qalmışdı saqqal darağı.
Hesapsız, azapsız.
Heyvan ilişə ilişə; insan diləşə diləşə.
Heyvan saxlasan pişik saxla; özü tutar özü utar.
Heyvanı tükün töküncə gör, qızı gəlin olunca gör, gəlini doğunca gör.
Heyvanın dişinə bax; insanın işinə.
Heyvanın dişinə; insanın işinə bax.
His gələr göz qaralar; his gedər üz qaralar.
Hünər elədə ulaşdırır; gəyədə ucalaşdırır.
Hürə bilmir itləri başa salır.
Hürməyin bilməyən; kəndə qonaq gətirər.
Iəflə dediyin, göz qapağıdı.
Iğən aclıq ola; artar savaş\ el xarab ola dəli oynada baş.
Iğən(çox) dadlı udular\ iğən acı atılar.
Ignə harda sapda orda.
Ignə həsrəti dəvə itirdər.
Ignə sapladın, düymələ ucun; sonra peşman olmamaq üçün.
Ignə torbada qalmaz.
Iki evi bir elədik; düyünü batman yarım.
Iki fındıq bir qozu qırar.
Iki itin sümüyü bir olsa....
Iki könül bir olunca, samanlıq seyrangah olur.
Iki olursun birlikdə danış, tək olursun börkünlə danış.
Iki onbeş; bir otuz.
Iki oylu\ iki evil.
Iki üzlü savaşma – bir üzlə savaşa qoy - o bir üzü barışa.
Ikisi birə dəyməz; biri də heçə.
Ilan adamın topuğunu, adam ilanın başını.

Ilan öz əyrisin görməz.
Ilana yumşaq diyib əl vurma.
Imanlı adam odada suyada inanar.
Inanma, aldanma, tovlanma.
Inək gözün süzər; buğa ipin qırar.
Inəyi olana nisyə dul verərlər.
Insan dolur doyur, genə başaçatmır.
Insan dolurda, doyurda, genə başa çatmır belə.
Insan necə başarır öylədə yaşayır.
Insan unutmaqla umut tapır.
Insanı dili bələr; sürünü qotur.
Insanın söyləməsindən; suyun şarlamasından qorx.
Ipin uzunu dilin qıssası.
Iş doğuyur; ışıqlar olur.
Iş görmədin təqbir ilə; düşmən olur təqdir ilə.
Iş yuxu görəndə deyir, onu yozandadır.
Işarədir bir ahılı canlatan, çomaq çubuk hər qanmazı anlatır.
Işdən doğur ışıqlar.
Işə girən min olar; onun başı bir olar.
Işi düşsə arar məni; işim düşsə qovar məni.
Işi işə bənd elə görən, desin habelə.
Işin canını, iş alar.
Işin düşdü sarıq başa  başın dəyər daşdan daşa; yapış ginən əyri xışa; ged o başa gəl bu başa.
Işıq üzü görünmür.
Islandım qurudum; yel məni neylər; ələndim bələndim; yel məni neynər.
Işləndikcə ışıldar.
Işlər əlindən çıxıp kilimi suya verdi.
Işləyən dəmir pas tutmaz.
Işləyən haçar parıldar.
Işliyən inci takar; işləmiyən yandan baker.
Işsiz bəydən yüklü eşək yey.
Istəməyin çarası verməkdir.
Istiyirsən bal-çörək; al əlivə bel kürək.
Istr’m onu sel aparsın, bir verdiyədə dalından mən töküm.
It çobanın qoldaşıda, yoldaşıda.

It dilənçiylə anlaşmaz; o bundan bu ondan qaçmaz.
It hürə - hürə qocalar.
It hürsə, bülbül susar.
It qapmaz; at təpməz demə.
Itdə geddi ipdə geddi.
Itə səlam; dəliyə sual olmaz.
Itilə yatan, bitilə qalxar.
Itivi "'haya" örgətmə; qonşunu "paya".
Iygə uy şərri qoy\ dinci tut cəngi qoy.
Iyidi qəm çürüdür, dəmir nəm çürüdür.
Iyidi yaş çürüdür, dəmiri pas.
Iyidin sirrin söz açar; yolu geddikcə qısalar.
Iyisin al, yadlısın(pisin) at.
Iyiyə qaç, yatludan qaç.
Iynə harda sapda orda.
-iynə həsrəti dəvə itirdər.
Iynə sapladın, düymələ ucun, sonra peşman olmamaq üçün.
Iynə torbada qalmaz.
Iynə yatakda gizlənməz : iynəylə çuval kimi.
Kapıplıq otdan köynəkdi.
Kar ağzına baxar, kor səsinə.
Karvan ötər, izi qalar.
Karvansız yol quruyar; ağ saqqlsız el quruyar.
Kaşki dırnağım qədər ağlım olaydı.
Keçdi bülbül, keçdi gül; istər ağla, istər gül (ötdü. Soldu).
Keçə salsan yun gərək;pıçaq salsan, qın gərək.
Keçəl baxar güzgüyə, aybın qoyar özgüyə.
Keçəl qız daraq bəyənməz.
Keçəlin adı : zülfəli.
Keçən ömür; yanan  kömürdəndi.
Keçən ömürdəndi, yanan  kömürdəndi.
Keçənlərin sözün sakla; könlüvü açar hər vax.
Keçini allah vursa; çopanın çubuğu dəyər.
Keçinin də saqqalı var.
Keçiyə araq versən, qurdun evin axtarar.
Keçmişinə güllə atan, gələcəyin topuna düşər.
Kəddi dizindən qızar, elat gözündən.

**Kəddi qonaq qaytarmaz; diyərki : qonacaq yerim yoxdu.**
**Kəfən almamış; gorun qazdırır.**
**Kefi kök, qarnı tox, tanrıla işi yox.**
**Keflini kağızı; meyxanada oxunur.**
**Kəkliyin dimdiyi qan; dili qan dimdiyi qan; ağa dinsə söz olmaz; nökər dindiyi qan.**
**Kəl ölər, sıma saçlı olur; kor ölür, badam gözlü olur.**
**Kən uzaq olmasa, it quddan qorxmaz.**
**Kənd olmasa uzaq itdən; it heç zaman qorxmaz qurddan.**
**Kənd olmasa uzaq, itdən; qurddan itin, qorkusu nədən.**
**Kəsər geddi; sapıda arkasıca.**
**Kəssək oturub; daşa ağlayır.**
**Ki kəndinə qazandın sarp düşman.**
**Kiçik ağzım olsun, ağca üzüm olsun.**
**Kiçik ağzım; ağca üzüm.**
**Kiçik də olsa haçar; böyük qıpılar açar.**
**Kiçikdisə böyür; oğlandisə ulur; yiqitdisə qocur.**
**Kim ağrısın basdırdı, ölümünən yastırdı(dost oldu).**
**Kim ağrısın basdırdı; olmazilə (ölüminən) dost oldu.**
**Kim gizləsə dərdini axır yıxar dərd oni.**
